## Asılılıq yaradan tibbi dərmanların növü

Əyləncə üçün qəbul edilən dərman vasitələri aşağıdakı əsas kateqoriyalara bölünür:

***Depresantlar:*** *daha çoxmərkəzi sinir sistemi (beyin və onurğa sistemi) depressantları olaraq adlandırılır və bu dərmanlar beyin funksiyasını yavaşladır. Bunlara sedativ preparatlar ( insanı sakitləşdirmək və yuxulu etmək üçündür) və trankvilizatorlar (gərginliyi və həyəcanı azaltmaq üçün nəzərdə tutulmuşdur) aiddir.*

***Opiatlar:*** *adətən ağrıkəsici kimi adlanır və tərkibində opium və narkotik maddələr var ki, ağrını kəsmək üçün istifadə olunur.*

***Stimulyatorlar:*** *enerjinin artırılması, əhvalın düzəlməsi, qan təzyiqinin artması, ürək çırpıntılarının və nəfəsin sürətlənməsi üçün nəzərdə tutulmuş preparat sinifinə aiddir.*

***Antidepressantlar:*** *depressiya ilə mübarizə aparmaq üçün lazım olan psixiatrik dərmanlar.*

***Depressantlar***

*Onlar rəngli həb və maye formasında satılır.Bu kateqoriyadan olan bəzi dərmanlar əsasən trankvilizator və antipsixotik kimi tanınır və bəziləri yuxu gətirici kimi istifadə olunur.*




**Narkomanlığa və Narkotik Vasitələrin Qanunsuz Dövriyyəsinə Qarşı Mübarizə üzrə Dövlət Komissiyasının daimi fəaliyyət göstərən İşçi Qrupu**

**Tel:** (+994 12) 498 25 28; (+994 12) 498 58 82
(+994 55) 600 08 02; (+994 70) 400 08 02
**E-mail:** info@nmdk.gov.az
**Web:** www.nmdk.gov.az


802 qaynar xətt


**Narkomanlığa və Narkotik Vasitələrin Qanunsuz Dövriyyəsinə Qarşı Mübarizə üzrə Dövlət Komissiyasının daimi fəaliyyət göstərən İşçi Qrupu**


# PSİXOTROP MADDƏLƏR HAQQINDA HƏQİQƏT

www.nmdk.gov.az

## Psixotrop maddələr haqqında həqiqət

Son dövrlər yeniyetmə və gənclərin əyləncə məqsədi ilə narkotik tərkibli dərmanları qəbul etməsi ciddi problemdir. Araşdırmalar göstərir ki, yeniyetmələr qadağan edilmiş narkotik vasitələrə nisbətən psixotrop dərmanların sui-istifadəsinə daha çox meyl edirlər. Bir çox yeniyetmələr hesab edirlər ki, dərmanlar təhlükəsizdir çünki onlar həkimlər tərəfindən təyin olunur. Lakin bilməliyik ki, onlar müalicə məqsədi ilə istifadə olunmadıqda və ya həkim təyinatı olmadan özünü müalicə və ya rahatlamaq üçün istifadə olunduqda narkotik kimi asılılıq yarada bilər.

Dərman vasitələrindən sui-istifadə sağlamlıq üçün çox ciddi təhlükə yaradır. Ona görə də dərmanlar həkim təyinatı və nəzarəti ilə qəbul olunmalıdır. Hətta bu halda belə asılılıq və ya digər problemlərin qarşısını almaq üçün onların istifadəsinə nəzarət etmək lazımdır. Bir çox həb oxşar tərkibli ola bilər və əgər bilmirsizsə həb nə üçündür və ya sizə həkim tərəfindən yazılmayıbsa bu dərmanı qəbul etmək çox təhlükəlidir. Hər bir insanın orqanizmində baş verən fərdi proseslərə görə dərmanlara müxtəlif reaksiyaları var. Bir insana faydalı olan dərman vasitəsi digər insan üçün təhlükəli hətta ölümcül ola bilər.

### *Yalnız həkim təyinatı üzrə tövsiyə edilən dərmanları qəbul etmək təhlükəsizdir!*

### Tibbi preparatlar barədə nəyi bilmirsiniz?

Psixotrop dərmanların asılılıq yaratması səbəbi ilə, onlardan bir çoxu artıq ağır narkotiklərlə eyni təsirə malik kateqoriyaya aid edilmişdir.

Qadağan olunmuş narkotik maddələrin çoxu bir vaxtlar həkimlər və ya psixoloqlar tərəfindən xəstələrəmüalicə məqsədilə təyin olunub, lakin onların sui-istifadəsi və məhvedici təsiri müəyyən olduqdan sonra onların dövriyyəsi qadağan olunmuşdur.

Psixotrop dərman vasitələrinin sui-istifadəsi qanunsuz yolla istehsal olunan narkotik maddələrin qəbulundan daha təhlükəli ola bilər. Həkimlərin təyin etdiyi süni şəkildə istehsal edilmiş bəzi sintetik preparatlar aşırı dozada qəbul olunduqda ölüm riskini daha da artırır.

Dünya üzrə belə nəticələnən ölüm faktlarının sayı iki dəfə artmışdır. Bilməliyik ki, psixotrop dərman preparatlarının həkimlərin təyini olmadan qəbulu, satılması narkotik ticarətin bir başqa formasıdır və heroin, kokain digər ağır narkotiklərin satışı kimi qeyri-qanunidir və eyni zamanda cinayət məsuliyyətinə cəlb olunma ilə nəticələnə bilər.

## Qəbul olunan depressantların dərhal nəticəsi

Depressantların dərhal təsiri bunlardır

- Beyin fəaliyyətini zəiflədir
- Aşağı təzyiq
- Çaşqınlıq
- Baş dönməsi
- Qızdırma
- Görmə pozulması
- Hərəkət pozulması
- Nəbz və tənəffüsün zəifləməsi
- Zəif konsentrasiya
- Ümumi zəiflik
- Qarışıq nitq
- Tənbəllik
- Depressiya
- Asılılıq

Daha böyük dozada qəbul olunan psixotrop maddələr yaddaşın, nitq qabiliyyətinin pozulmasına, dərin depressiyalara və hətta intihara səbəb ola bilir. Bəzi insanlarda isə gözlənilən effektin tam əksi aqressivlik, həyəcan və əsəbilik olur.

Sakitləşmək üçün istifadə olunan alkoqollu içkilərlə sedativ preperatların birgə qəbulu da ölümlə nəticələnə bilər.

## Depresantların Psixotrop dərmanların uzunmüddətli istifadəsinin təsiri

Depresantların orqanizmdə qəbul olunması çox sürətlə inkişaf edə bilər və insanın eyni effekti almaq üçün daha çox dozaya ehtiyacı olur. Sakitləşmək və rahatlamaq üçün də dərmanlardan istifadə edən insan əgər yüksək doza qəbul edərsə, onun nəticəsi koma və ya ölüm ola bilər. Uzunmüddətli depressantların qəbul edilməsi depressiyaya, yuxu pozulmasına, xroniki zəifliyə, tənəffüs çətinliyinə, cinsi zəifliyə gətirib çıxara bilər. Narkotik maddələrin bir çoxundan fərqli olaraq antidepressantları tərgitmək çox çətin olur və bəzi hallarda ölümlə nəticələnir. Bu maddələr qanda şəkərin yüksəlməsinə, çəkinin artmasına və şəkər xəstəliyinə gətirib çıxara bilər (elə hallar olub ki, çəki 40 kiloya qədər çoxalıb).

Aparılan araşdırmaya görə son 4 il ərzində "antipsixotik" dərmanların (antidepressant növü) həkim nəzarəti olmadan qəbulu ürək problemləri, boğulma, intihar kimi hadisələrin səbəbi olmuşdur.